

# QADINLIĞIN ŞƏRƏF YOLU

*Müdriklərdən biri demişdir ki, elm və tərbiyənin ibtidası qadınlardan başlayır, elm tələb etmək hər bir müsəlman kişiyə və müsəlman qadına vacibdir. Bu hökm sayəsində yer üzündə milyonlarla elmli müsəlman qadın övladına müəllim və tərbiyəçi olmuşdur. Tarix boyu ictimai və siyasi həyatda müəyyən mövqe tutmuş qadınlar bir çox şifahi və yazılı abidələrdə tərənnüm olunmuşdur. "Kitabi-Dədə Qorqud" yazılı abidəmizdə təsvir olunan mərd qadınların xələfləri olan Tuti Bikə, Qürrətüleyn, Həcər kimi türk qadını Məhəmməd Zehni əfəndinin "Məşahürün-nisa", Rzaəddin ibn Fəxrəddin "Məşhur xatunlar", Məhəmmədhəsən xan Etimadüssəltənənin "Xeyrati-hesan", Bəhriyyə Uçokun "Müsəlman dövlətlərində qadın hökmdarları" və başqa əsərlərdə yaşayırlar və onları da tarixdə yaşadanlar olmuşdur. Belə əsərlərdən biri "Xeyrati-hesan" ("Gözəllər sərvəti") əsəri diqqətəlayiqdir. Əsərin müəllifi Nəsrəddin şah Qacar dövrünün görkəmli şəxsiyyəti, marağalı Məhəmmədhəsən xandır.*

**Tahirə HƏSƏNZADƏ,**
**Marağalı Məhəmmədhəsən xan Etimadüssəltənənin "Xeyrati-hesan" kitabına ön sözdən.**

Kredo .- 2022.- 24 noyabr.- S.1.